# Azərbaycan-Türkiyə: Bir ağacın iki qolu

***Bizim Türkiyə ilə həsəd doğuran yaxınlığımızı şərtləndirən başlıca amillər ortaq dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələrdir. Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə qeyd-şərtsiz dəstək olublar. Bizi birləşdirən köklər Dədə Qorquddan Koroğluya, Mövlanədən Nəsimiyə, Qafqaz İslam Ordusunun xilaskar komandanı Nuru paşanın Bakıya gəlişindən Qarabağa qədər zəngin bir tarixi özündə yaşadır.***



***Bu gün Türkiyə və Azərbaycan bir-birinə dünya çapında ən yaxın olan ölkələrdir. Bizi birləşdirən bir çox amillər var, ilk növbədə, tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı bu birliyi təmin edib. Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

İlham Əliyev – Rəcəb Tayyib Ərdoğan qardaşlığı genetik-etnik, əxlaqi-mədəni, siyasi, sosial-iqtisadi bağlarımızı daha da möhkəmləndirib. Bu gün Türkiyənin mənəvi və siyasi dəstəyi ilə azadlığına qovuşmuş Qarabağda aparılan genişmiqyaslı quruculuq işləri durmadan artan gücün təcəssümüdür. Eyni zamanda, heç vaxt unutmarıq ki, Qarabağda aktiv hərbi əməliyyatların ilk günündən Türkiyə münaqişədə tarixi ədalətin bərqərar olması üçün səsimizə səs verdi. Özünün gücü, təsir imkanları ilə Azərbaycanı erməni təəssübkeşlərinin həmlələrindən qorudu. Ərazilərimizi məhz havadarlarının köməyi ilə zəbt etmiş erməni işğalçılarının bu dəfə döyüş meydanında qəhrəman Azərbaycan əsgəri ilə üz-üzə qalmasına şərait yaratdı. Rəcəb Tayyib Ərdoğan başda olmaqla bu ölkənin bir çox rəsmiləri, Türkiyə cəmiyyətinin ən nüfuzlu simaları Azərbaycanın yanında olduqlarını qətiyyətlə bəyan etdilər.

Birliyimiz artıq dünyanı heyrətdə qoyan münasibət statusu alıb. Prezident İlham Əliyev hər zaman bu barədə fikirlərini böyük qürur hissi ilə ifadə edir: "Azərbaycan-Türkiyə strateji müttəfiqliyi və tərəfdaşlığı regionda sülhü və təhlükəsizliyi təmin edən, əməkdaşlığın inkişafına töhfə verən mühüm amildir. Həqiqətən də, qardaş və dost ölkələrimizin və xalqlarımızın qarşılıqlı münasibətləri ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarına uyğun olaraq, bütün sahələrdə müvəffəqiyyətlə inkişaf edir və genişlənir".

Beynəlxalq təşkilatlarda müxtəlif məsələlər üzrə Azərbaycanla Türkiyənin mövqeləri daim üst-üstə düşür, tərəflər bir-birinə qarşılıqlı dəstək verir. Azərbaycan BMT, İKT, NATO, Avropa Şurası, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Birliyi kimi qurumlar çərçivəsində Türkiyə ilə faydalı strateji əməkdaşlıq edir.

Yaxın tariximizin iqtisadi mənzərəsi də rəngarəngdir. Daha qlobal mahiyyət daşıyan bəzi səhifələrə nəzər salmaq yetərlidir ki, bunu əyani şəkildə görək: Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP kimi enerji layihələri, prezidentlərimizin iştirakı ilə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılması, Türkiyədə "STAR" neft emalı zavodunun işə salınması, 2020-ci il dekabrin sonunda Azərbaycan kommersiya qazının Trans-Adriatik Boru Kəməri vasitəsilə Avropaya tədarükünə başlanması və s. ölkələrimizin monolit birliyinin nümayişi kimi fərəh doğurur...

İki qardaş xalqın birlik tarixi uzaq çağlara söykənir. XX yüzildə erməni vəhşiliyinə qarşı milli düşüncənin hərbi güclə qaynayıb-qarışmasının ilk örnəyini yaradanlardan olan, Şuşa kökənli Əhməd bəy Ağaoğlunu xatırlamaq kifayətdir. 1906-cı ildə o, erməni Daşnaksütyun partiyasının terrorizminə qarşı mübarizə aparmaq üçün Gəncədə "Difai"partiyasını təşkil edib, sonra xaricdə Türk Ocağını yaradanlardan biri olub. 1916-cı ildə Millətlər Birliyinin Konqresində Türkiyədən Lozannaya gedən nümayəndə heyətinin tərkibində Azərbaycanı təmsil edib. Qələm dostum Azər Turan yazır ki, Əhməd bəyin təsisçisi olduğu "İrşad" qəzeti də türk məfkurəsinin geniş yayılmasına xidmət edirdi. "Tanrı dağı" adlı hekayəsində yazdığı "Səkkizguşəli ana Kainat" ibarəsi bizə Azərbaycan bayrağındakı səkkizguşəli ulduzun mifoloji mənşəyini anlamaqda kömək edir. 1918-ci ildə Nuru paşanın siyasi müşaviri kimi, Əli bəy Hüseynzadə ilə birlikdə Gəncəyə gəlib. Qısa müddət də olsa, Cümhuriyyət Parlamentinə Zəngəzurdan deputat seçilib. Bu il Vaqif Poeziya Günləri çərçivəsində azad Şuşaya səfər edən ziyalılarımız orada Əhməd bəy Ağaoğlunun da əziz xatirəsini yad ediblər.

...Ötən il dekabrın 10-da Bakıda təşkil olunan möhtəşəm Zəfər paradında yeganə ali qonaq kimi Rəcəb Tayyib Ərdoğanın iştirakı iki dövlət – bir can amalının, həqiqətən də, əbədi olduğunu bir daha göstərdi. Zəfər paradı bu müharibədə canını vermiş şəhidlərimizin sayı qədər türk mehmetçiyinin rəsmi keçidi və Bakı küçələrində yürüşlə döyüş mahnıları oxuması ilə daha da möhtəşəm oldu.

…Zəngilanda "Dost Aqropark"ın təməlqoyma mərasimində iki ölkə prezidentlərinin çinar ağacı əkmələri də böyük rəmzi səciyyə daşıyır. Çinar dirilik, dirçəliş simvolu, insan nəfəsi ilə dikələrək, başını göylərə dayayan qaladır. Bu yerdə unudulmaz xalq şairimiz Bəxtiyar Vahabzadənin nəğməyə dönmüş məşhur şeiri yada düşür:

***Bir ananın iki oğlu,***
***Bir ağacın iki qolu,***
***O da ulu, bu da ulu –***
***Azərbaycan – Türkiyə!***

Möhtərəm Prezidentlərimiz – cənab İlham Əliyevlə cənab Rəcəb Tayyib Ərdoğan anadan ər doğulmuş böyük sərkərdələr kimi müzəffər liderliklərini uğurla davam etdirirlər. Bu yaxınlarda İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında Türkiyə Cümhurbaşqanının təşəbbüsü ilə Prezident İlham Əliyevə Türk dünyasının Ali Ordeninin təqdim olunması dövlət başçımızın Zəfər tarixi yazmasının və dünya türklüyünə misilsiz töhfələr verməsinin layiqli qiymətidir.

Ali Ordenə layiq görülməsindən xoşbəxtlik hissləri keçirdiyini qeyd edən Prezident İlham Əliyev deyib ki, Türk Şurası dövlət başçıları Türkiyə Prezidentinin təşəbbüsü ilə onu bu Ali Ordenə layiq görüb: "Bu ordenin mənə verilməsi Qarabağın qurtuluş savaşının sonunda baş tutdu. Türk dövlətlərinin bunu bu şəkildə qəbul etməsinə və məni bu ordenə layiq gördüklərinə görə öz adıma və bütün Azərbaycan xalqı adına böyük qürur hissi keçirirəm. Bu, Azərbaycan xalqına verilmiş bir ordendir. Çünki İkinci Qarabağ müharibəsində həqiqətən çox mühüm səylər göstərdik. Bu Ordeni sevgili qardaşım Rəcəb Tayyib Ərdoğandan almağım xüsusilə önəmlidir. Müharibənin ilk günündən son gününə qədər onun bizə göstərdiyi dəstəyi hər an hiss etdik. Həqiqətən də, bu dəstək bizə güc verdi, bizi ruhlandırdı, çünki əziz qardaşım Azərbaycanın dünyada tək olmadığını və Türkiyənin hər zaman Azərbaycanın yanında olacağını göstərdi. Biz böyük bir zəfərlə vəzifəmizi yerimə yetirə bildik".

Türkiyənin ürəyi daim Azərbaycanla döyünür. Cənab Rəcəb Tayyib Ərdoğan ölkəmizə növbəti səfəri zamanı Zəngəzur dəhlizinin bir hissəsi olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlqoyma mərasimində ən çox sevinənlərdən idi. O, vurğuladı ki, Zəngəzur dəhlizi bu coğrafiyada əlaqələrin ana arteriyası olacaq. Buradan keçəcək avtomobil və dəmir yolu xətləri sadəcə Azərbaycan və Türkiyə üçün deyil, bütün bölgə ölkələri üçün də iqtisadi-ticari imkanlar yaradacaq. Gün gələcək Zəngəzurdan çıxıb, İstanbula qədər gedə biləcəyik, İğdıra, Qarsa gedə biləcəyik və bölgənin tranzit, logistika mərkəzinə çevrilmə imkanı möhkəmlənəcək. Bu inkişafdan İran, Rusiya, Gürcüstan, Ermənistan da daxil olmaqla Azərbaycanın bütün qonşuları istifadə edəcəklər. Bir sözlə, bu layihələr kənarlaşdırıcı deyil, əhatəedicidir. Beləcə, türk lideri bir daha sübut edib ki, biz ayırıcı deyil, birləşdirici yolun tərəfdarıyıq, ədavətin deyil, sülhün elçisiyik.

Burada əlavə edək ki, Cənubi Qafqaz regionun iqtisadi baxımdan çiçəklənməsi məqsədilə irəli sürülən "üç + üç" formatının müəllifi məhz Rəcəb Tayyib Ərdoğandır. Bölgənin nəhəng iqtisadi layihələrinə qonşu ölkələrinin cəlb edilməsini özünün xarici iqtisadi siyasətinin prioriteti kimi diqqətdə saxlayan Türkiyə hazırda bu yöndə fəaliyyətlərini uğurla davam etdirir. Son günlər Türkiyənin sözügedən mövzuda İranla intensiv məsləhətləşmələr aparması da buna sübutdur.

Cənab İlham Əliyevin zərbməsələ çevrilən "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" fikri özünün əməli ifadəsini hərtərəfli tapmaqdadır. Elə iki ölkə rəhbərinin iştirakı ilə imzalanan Şuşa Bəyannaməsi qızıl hərflərlə yazılan tarixi bir sənəd sayılır. Müzəffər Ali Baş Komandan bu barədə fikirlərini çox aydın şəkildə ifadə edib: "Bu Bəyannamə bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır".

Rekord müddətə - cəmi səkkiz aya inşa olunub istismara buraxılan Füzuli Beynəlxalq Hava Limanı iki qardaş ölkənin birliyinin bariz nümunəsidir. Reallıq göstərir ki, biz Böyük Zəfərin bir illiyini təkcə azad olunmuş deyil, həmçinin dirçəldilən Qarabağda cani-könüldən bayram edən böyük millətik. Həmin mərasimdə dövlət başçımız bunu fərəhlə qeyd edib: "Bu gün Füzuli Beynəlxalq Hava Limanının açılışında birlikdə iştirakımız bir daha bizim birliyimizi göstərir. Onu göstərir ki, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır... Bu hava limanının inşasında Azərbaycan və Türkiyə şirkətləri iştirak etmişlər. Yəni, bu, bizim birgə uğurumuzdur".

Dünyada türk birliyi xoş məram, işıqlı amal birliyidir. Türkiyə də, Azərbaycan da sırf sülhpərvərlik, ədalət və barış missiyasının daşıyıcılarıdır. Bu, kimsəni narahat etməməlidir. Çünki bir mütəfəkkir dəqiq söyləyib: "Dünyada haqq və ədalətə hökmdarlıq edəcək tək millət türk millətidir. Bu, zalımın qarşısında, məzlumun yanında olan tək millətdir".

Turan dünyasının qüdrətli təmsilçisi olan, inamla istiqbalına yürüyən, beynəlxalq məsələlərdə sözünü qətiyyətlə deyə bilən, NATO-nun üzvü olan Türkiyə hazırda yaxın Şərq və Aralıq dənizi regionunda sülhün təminatçısı kimi tanınır. Qardaş ölkə Cənubi Qafqazda da sülh carçısı olan və səsi aydın eşidilən bir dövlətdir. Azərbaycan Respublikası da öz coğrafiyasında liderlik səviyyəsinə yüksəlmiş qalib bir dövlətdir. Mənəvi bağlarımızdan, ortaq tariximizdən, köklü mədəniyyətimizdən su içən birliyimiz əbədidir.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***